

Ramazan Qafarlı

# ATLILARIN DÜNYASI

## BİZ KİMİK VƏ KÖKÜMÜZ HARDAN BAŞLANIR?



**Atilla:**
«Dünya savaş meydanıdır. Yaşamaq üçün ağıl azlıq edir, fərasət və gücü olmayan, özünə qəbir qazmalıdır. Qeyrətsiz nə qədər güclü olsa da, qılıncı əlində saxlaya bilməz».

**Ulu əcdadlarımız** – işquzlar, turanlılar, saklar, sarmatlar, hunlar, oğuzlar və səlcuqlar haqqında rus, ingilis dillərində olduqca müəmmalı fikirlər formalaşdırılıb mötəbər tarix kitablarında, ensiklopediyalarda, internet saytlarında yerləşdirilir. Elmdə mövcud olan əsas qənaətlərdə bildirilir ki, türkün kökü b. e. ə. III yüzillikdə Çin və Monqolustan sərhədlərində hun tayfalarının görünməsi ilə başlansa da, onlar özlərini tarix meydanında b. e-nın. VI əsrində təstiqlətmişdir. Əlbəttə, həmin çağlarda (min il ərzində) Mətə, Atilla kimi cahandarların böyük im¬periyalar qurub az qala dünyanın yarısından çoxunu əsarət altına alması hadisələrini gizlətmək, ya da qatı duman içində saxlamaq mümkün olmadığından hind-avropa mənşəli xalqların arasında köçəri türk tayfalarının da yaşadığı etiraf edilməliydi. Lakin birincilərin (hind-avropalıların) çox əski çağlardan Çin sərhədlərini belə aşaraq sürətlə gündoğana doğru yayıldıqlarını kor-koranə vurğulasalar da, türkün kökünün b. e. ə. III yüzillikdən o yana adlamadığını irəli sürməklə tarixi qanunauyğunluğu pozurdular. Çünki heç bir etnos hər hansı bir əraziyə göydən düşmür, ya da qəflətən öz-özünə doğulmur, daha əski tayfa və qəbilələrin birləşməsi, müxtəlif xalqların assimliasiyası nəticəsində yaranıb fəaliyyət dairəsini genişləndirir. Bu halda dil faktoru üstünlük təşkil edirsə, yəni yeni etnos kimi təsdiqlənəndə dil türk elementləri əsasında formalaşırsa, inkaredilməz faktdır ki, əvvəlki mərhələdə də türklük (yaxud prototürklük) əsas, özül funksiyasını yerinə yetirmişdir. Bu həqiqətlərə göz yumanlar türklüyün kökünü daha dərinlərdə göstərməyə təşəbbüs edənləri «avtoritet» alimlər sırasında saymayaraq hörmətdən salmağa çalışırdılar. Sual doğur? İzi-tozu qalmayan bir çox qədim etnoslar diqqətlə öyrənildiyi halda, dünya xəritəsinin böyük hissəsində ondan çox müstəqil dövlət və muxtar vilayətlə təmsil olunan Türkün tarixini nə səbəbə hər zaman saxtalaşdırır, yaxud da qatı duman içində saxlayırlar? Buna səbəb məhz Türkün böyüklüyü, sonsuz gücü, müdrikliyi, xəyanəti bağışlamaması, səxavəti və ağayanalığıdır. Tarix meydanına atıldığı andan onun yeri başda olmuşdur. Ətrafında dolaşan çaqqallar quyruq bulaya-bulaya şirin ovunun tör-töküntülərini yeyib kökəlsələr də, həmişə bu güclü heyvanın yoxluğunu istəyirlər. Türkün də aliliyinə sığınıb var-dövlətə yiyələnən yaddillilər, imansızlar onun bu torpağa gəlişinə şübhə toxumları səpirlər. Amma ulu əcdad doğulan kimi ▶



(özü də qərblilərin faktlarına əsasən) tarixə Oğuz xan, Mətə və Atillalar bəxş edib. Hər əsrdə yeni-yeni qüdrətli sərkərdələr, dövlət xadimləri, sənət korifeyləri - **Yusif Balasaqunlu, Mahmud Kaşqarlı, İbn Sina, Sultan Toğrul, Eldəgiz, Qızıl Arslan, Nizami, Xaqani, Çingizxan, Batı, Əmir Xosrov Dəhləvi, Osman Qazi, Yunus İmrə, Əbdürrəhman Cami, Nəsimi, Əmir Teymur, Sultan Bəyazid, Füzuli, Nəvai, Uzun Həsən, Şah İsmayıl, Babur, Cahanşah, Qacar, Nadir, Atatürk, Heydər Əliyev** və b. yetişdirib. Bu tarixi şəxsiyyətlərin hər biri dünyada öz dərin izini buraxıb. Onların həyat yolunu bəzən bilərəkdən öz istədikləri görkəmdə işıqlandırıblar, dünyanın qara rəngini üstlərinə çiləyiblər. Tarixi cavabsız tapmacalarla doldurublar. Niyə?..

Türkün ulu ərənlərini olduqları kimi və qorxuya saldıqları xalqların gözündə görünən şəkildə sizə təqdim etmək istəyirik.

Ulu əcdadlarınızı tanıyıb ibrət alın! Onların ruhunu itirilmiş torpaqlarımızla çox incitmişik… Gəlin bir anlığa da olsa, papaqlarımızı qabağımıza qoyub yaxşı-yaxşı düşünək; görək, doğrudanmı damarlarımızdan hunların, oğuzların, moğolların, səlcuqların qanı axır?..

## ATİLLA

Roma imperiyasının dünyanı diz çökdürüb mədəni Şərqi viran qoymasını, dövlət işlərini bir kənara atıb sarayları əxlaqsızlıq yuvasına döndərməsini, ən acınacaqlısı isə, Allah elçisi İsuss Xristosu işgəncələrlə öldürməsini unudan xristian tarixçiləri Boyük hun sərkərdəsi Atillanı, tarixin yaddaşına düşər-düşməz, xüsusiləşdirilib vəhşiliyin və ağlasığmaz, mənasız qarətçiliyin, soyğunçuluğun, barbarlığın simvoluna çevirmişdilər.

Qeyri-adi şücaətini, hərb ustalığını, iradəliliyini, mərdliyini pərdələmək məqsədi güdən xoflu rəvayətlər, əfsanələr uyduraraq onu Tanrının İnsanlığın üstünə göndərdiyi fəlakət, bəla saymışdılar. Guya Atilla Yaradıcının qamçısıdır, ovudur. Yer üzünə ona görə gəlib ki, bəşər oğlunun bütün eybəcər sifətlərini özündə cəmləyib haqqı tapdasın və çirkin əməllər törətməklə Allahın qəzəbini artırsın. Əslində Romanın qəbirqazanı missiyasını yerinə yetirən bu dahi sərkərdə, hökmdar, qüdrətli dövlət başçısı zəka və hünərin simvoluna çevrilməli idi. Çünki antik çağın kəşflərindən, sıçrayışlı inkişafdan, döyüş qələbələrindən başı gicəllənən Şərqi Avropa dünyaya meydan oxuya-oxuya cılızlaşmışdı. İmperiya Sezarın, İsgəndərin qan bahasına əldə etdikləri maddi və mənəvi dəyərləri itirmək təhlükəsi qarşısındaydı. Demokratik prinsipləri yaradan Poma senatı çökmüşdü. Ağıldankəm imperatorların - neronların taxtı laxlayırdı. İnsanlığı ictimai bəlalardan, kefli zadəganların oyunlarından qurtarmaq üçün İsa Məsiha şəhid oldu, Qərbi qəflət yuxusundan oyatmaq istədi. V əsr keçsə də, onun fədakarlığı fayda vermədi. Bəndələr elə hey haqqın bərpasını gözləyirdilər. Yollar aranırdı. Fani dünyada şərxislətlilər o qədər artmışdı ki, işıqlı əməllər gözə görünmürdü.

Atilla belə ağır bir çağda doğulub boya-başa çatmışdı və at belində öz tayfasının adət-ənənəsinə uyğun ov ovlayır, quş quşlayırdı. Sevib-sevilmək arzusundaydı. Ata-babasından qalma sərvətlə kifayətlənib hunlara əmin-amanlıqla yaşamağı tövsiyə edirdi.

Qəflətən harınlaşmış yadellilər başının üstünə qılınc qaldırdılar, sinəsinə ox tuşladılar. Maldar, ovçu soydaşlarını girov aparıb qapılarında nökər etməyə cəhd göstərdilər. Qəzəblənən Atilla qəti qərarını elinə açıqladı:

-«Biz, hunlar da Yer üzünün sakinləriyik. Üstümüzə nizə, qılıncla yeriyənlərin biləkləri kəsiləcək! Atlarımızın rahat çapması üçün torpaq lazımdır. Onu dar edənlər yersiz-yurdsuz qalacaqlar!»

Atilla Avropaya at belində birdən-birə gəldiyi kimi toz-duman qopardıb yoxa çıxmadı, Qərbin ürəyinə elə bir yara vurdu ki, sızıltısı hələ də getməyib...

-«Hunlar, atları yəhərləyin!..» - Alınmaz qalaların yerlə yeksan edilməsi üçün məğrur Atillanın bircə bu əmri bəs edirdi.

İstəsə də, istəməsə də Şərq və Qərb atlıların dünyasına qarışdı. Atlılar hər yanı savaş meydanına döndərdi, hara bayraq sancdılarsa, orada yuxular qarışdı. Qılınclar qınlarında pas atmadı. Bu, əslində romalıların çağırışına əsl döyüşçü cavabı idi...



## XUN – HUN

**Çin imperatoru Böyük Hun xaqanı Mətədən ən qaçağan atını istədi. Etirazla qarşılanmadı. Sonra həvəslənib xaqanın sevimli arvadından xoşlandığını bildirdi. Mətə onu da imperatora göndərdi. Amma qonşu dövlətin başçısının hunların istifadəsiz qalan torpaqlarına göz dikdiyini eşidəndə qüdrətli xaqan qəzəbləndi, müharibəyə başlamaq əmri verib dedi: «Torpaq dövlətin əsasıdır. Onu kiməsə paymı vermək olar? Atı və arvadı istədiyin zaman xərc qoyub ala bilərsən. Lakin torpağı hər bir xalqa Böyük Tanrı bağışlayır. Torpaq və xalq varsa, dövlət qurub yaşatmaq da mümkündür»...**

Bu da tarixin bir acı dərsidir. Mətənin müqəddəs saydığı torpaqları qorumayanlar tapıldı, yad qadının hiyləsinə uyub paylaşdıran da doğulub taxt-tacda əyləşdi. Bir neçə yüz illik Böyük Hun xaqanlığı dağıdıldı. Pərən-pərən düşən tayfalar üç qola ayrıldılar. Bir hissə müasir Monqolustan ərazisində qaldı, bir hissə Qazaxstan və Orta Asiyada məskunlaşdı, sonuncular isə döyüşə-döyüşə geri çəkilərək İtil (Volqa), Tonya (Dunay) və Yaik (Dnepr) çaylarının sahillərində özlərinə daimi sığınacaq tapdılar.

360-cı ildə hunların üçüncü qolu ilə alanlar arasında qanlı müharibə başlandı. On il davam edən aramsız döyüşlər, qoşunlarının sayının azlığına baxmayaraq, hunların qələbəsi ilə başa çatdı. Onların atlı dəstələri Şimali Qafqaz, Xəzər və Azov dənizi ərazilərini nəzarət altına aldılar. Qərbə doğru irəliləyəndə qarşılarında kral Qermanihin başçılıq etdiyi qüdrətli qot çarlığı dururdu. Onun torpaqları Baltik dənizindən Azovadək uzanırdı.

Hunlar 374-cü ildə Balamiri «başbuq» (xan) seçdilər. İtil sahillərində yaşayan türkmənşəli tayfaların birində dünyaya göz açıb yetişən Balamir qətiyyətli adam idi. O, şərqi almanların – qotların üzərinə hücuma keçdi. Ağır döyüşlərdə hunların qələbə çalacaqlarına ümid yox idi. Ona görə ki, qotların uzun nizələrlə silahlanmış mahir piyada qoşununu o çağadək heç bir süvari dəstə məğlubiyyətə uğratmamışdı. Sonsuz gücə malik və yüksək təlim görmüş qotlar üzərlərinə gələn atlıları asanlıqla nizələrin ucuna keçirib göyə qaldırırdılar. Balamir düşmənin bu məharətinə bələd idi. Və görəsən nə səbəbə yüzlərlə hun atlısını bilə-bilə ölümə göndərirdi?..

Qermanih belə döyüşlərə çox alışmışdı. Arxayın idi ki, hunların da cəmdəyini quduz köpəklərə yedirdəcək. Məclis qurdurmuşdu, heç bir qorxulu hadisə baş verməyibmiş kimi şərabpaylayan qadınlarla əylənirdi. Birdən ordu başçısı qan-tər içində içəri daxil olub kralın qarşısında diz köçdü:

-Hunlar nizəli piyadaları oxladılar. Müqavimət tamam dağıdılıb.

Demə, hunlar atla düşmən üzərinə sürətlə yeriyən məqamda yay-oxdan məharətlə istifadə etməyi bacarıblarmış. Geniş düzəngahda ildırım tək şığıyan hun atlısının əli nizəli qotların 100-150 addımlığına çatanda sürəti azaltmadan oxu ancaq bircə dəfə nişan alıb atmaq şansı vardı. Əgər ox qarşısındakı hədəfə dəyməsəydi, o, ölümdən yaxasını qurtara bilməyəcəkdi. Çünki nə atın yüyənini çəkib saxlamağa, nə də oxu ikinci dəfə yaya qoyub atmağa fürsət tapacaqdı.

...Qermanih hunların qalaya girdiyini eşidəndə qılıncını çıxardıb öz əlləri ilə ürəyinə sancdı.

Balamir qələbədən ruhlanıb irəli yeridi.

Hunlar 375-ci ildə Dnepr çayı yaxınlığında vi- ▶

«Evimiz təkərlər üstündədir, hünərimiz at belində. Yəhər beşiyimiz, taxtımız və şücaət yerimizdir. Müqəddəs yovşanlı çöllərə ayaq basmarıq, otları tapdalamaq günahdır. Anamız torpağı murdarlayanlar dünyanı daraltmaqla məşğuldurlar. Onların qanını Ulu Tanrı bizə halal etmişdir».



«Gün batanadək sənin dövlətin yerləşən əraziyə çata bilərəm. Amma ulularımız bizə öz dili ilə imdad diləyənə toxunmamağı tövsiyə ediblər».

ziqot qoşunlarını da dağıtdılar.

Viziqotların əksəriyyəti Şərqi Roma imperiyasına qaçıb imperator Valentindən yardım dilədilər. Atanarihin başçılığı altında qalan az bir hissə isə Prut və Dunay arası meşələrdə gizləndi. Tezliklə hunlara müqavimət göstərməyin mümkünsüzlüyünü anlayan Atanarih Bizans imperatoru Feodosi ilə danışıqlar apardı. O, 378-ci ildə döyüşçüləri ilə birlikdə Bizans imperatorluğunun hərbi hissələrinin tərkibinə keçdi.

Beləcə, hunlar Qərbi Avropaya doğru irəlilədilər. 378-ci ildə Roma imperiyasının sərhədlərinə yaxınlaşdılar.

Hun adı gələndə Avropa ölkələrində hamının bədəninə üşütmə düşürdü. Onlar xüsusi silahlarla təhciz olunurdular. Əyinlərinə kətandan enli xalat geyinir, üstündən kobud dəridən hazırlanan kürk keçirir və paltarlarının ətəklərini at tükü ilə bəzəyirdilər, başlarına ağır dəbilqə, yaxud nəhəng keçə papaq örtüb at belinə qalxır, ömür-günlərini böyük və nazik yəhər üstə keçirirdilər. İlk görünüşləri ilə avropalıların canına elə bir qorxu və vəlvələ salmışdılar ki, yerli sakinlər nağıllarında, əfsanələrində şər obrazını ancaq hunlarla əlaqələndirirdilər. Tarixçilər yazırlar ki, hunlar yerli əhalini təəccübləndirdikləri qədər dəhşətə də gətirirdilər. Ammian Marsellin yazırdı: «Onlar arabalarda köç salırlar. Bu araba həm də hunun evi idi - arvadını da orada əyləşdirirdi. Qadın təkərlər üstə kobud paltarlar tikirdi. Ər-arvad dünyaya gələn uşaqlarını arabada öz yanlarında saxlayırdı. Onlar narahatlığın, mərhumiyyətin, ehtiyacın nə olduğunu bilmir və oddan istifadə etmirdilər, bu səbəbdən də dadlı xörəklər hazırlamağa qadir deyildilər.

Hunlar sanki özlərinin gözəl olmayan, ancaq sağlam atları ilə birlikdə boya-başa çatırlar və ən adi işlərini yəhərdən yerə enmədən yerinə yetirirlər. At üstündə alış-veriş edir, hətta obanın ümumi yığıncağında da atdan yerə enmirdilər. Onlar cəlddirlər və atları bərk qaçandır. Döyüşlərdə torpağa paz basdırır, nərə çəkərək düşmənin üstünə cumurlar».

Hunlar Böyük Göy Tanrının ruhuna itaət edirdilər. Onlar beş ünsürü beş şəxsin timsalında canlandırırdılar. Bunlar od, su, hava, torpaq və dəmirdir. Hər biri uyğun olaraq bir rənglə təcəssüm etdirilir: qırmızı, göy, ağ, sarı və qara. Bu «beşlik» hunların musiqisində də təmsil olunur – pentatonik ritmlə mərasimlər, ayinlər, döyüş təlimləri yerinə yetirilir. Öz hərbçi şərəflərini qoruyub saxlamaq, ağır döyüşlərdə ölümdən qorxmamaq üçün tanrıçılıq görüşlərinə sığınırdılar.

IV əsrin əvvəllərində hunlar Roma imperiyasının sərhədlərinə yaxınlaşdılar. Avropalılar bu hadisəni eşidib bərk təşvişə düşdülər. Hamı bir sorğuya cavab axtarırdı: onlar kimin tərəfində duracaqlar? Xristian Romasının xidmətinə keçəcəklər, yoxsa əksinə?..

395-ci ildə Roma imperatoru I Feodosi öldü. Elə bil bu məqamı gözləyirdilər, hunlar Şərqi və Qərbi ovucunun içində saxlayan Roma imperiyasının üzərinə yürüşə başladılar. Onlar iki istiqamətdən hücuma keçdilər: Qafqaz vasitəsi ilə Bizansa və Dunayı adlayaraq Balkana. Anadoluda hunlar roma qoşunlarını darmadağım etdilər. Qaliblərin bir hissəsi müasir Türkiyə və Azərbaycan ərazisində əski soydaşlarına rast gəlib daimi məskunlaşdı.

400-cü ildə Balamir dünyasını dəyişdi, hakimiyyəti oğlu Ulduz ələ aldı. 409-cu ildə onun ordusu Dunayı arxada qoyub Bizansla müharibəyə başladı. Hunların həmlələrinə tab gətirməyən Bizans imperatoru öz səfirini Ulduzun hüzuruna yolladı: onlardan sülh istədiyini gizlətmədi. Ulduzdan cavab gəldi ki, «Gün batanadək sənin dövlətin yerləşən əraziyə çata bilərəm. Amma ulularımız bizə öz dili ilə imdad diləyənə toxunmamağı tövsiyə ediblər».

Ulduzun ölümündən sonra oğlu Mançuq taxtda çıxdı. O, vaxtının çoxunu türk tayfalarını birləşdirməyə sərf etdi. İki oğlu vardı - Atilla və Buda bir müddət dayıları Roilin himayəsi altında yaşadılar.



# TARİXİN CAVABSIZ QALAN BİR TAPMACASI



Atillanın Romanı diz köçdürməsi ilə xristian dünyası hələ də barışa bilmir.

**Belə bir günün çatacağı** heç kəsin ağlına gəlməzdi. Şöhrəti kitablara sığmayan dəmir geyimli döyüşçülər sanki qatı tüstünün içərisində ərimişdilər. Qərbi və Şərqi öz çaldığı havalara oynadan legionlardan əsər-əlamət görünmürdü, qarşıda əli silah tutan bir bəndə belə gözə dəymirdi, toza dönmüşdü. Böyük sərkərdələri qələbələrlə qarşılamağa adət etmiş qala divarları xəcalətdən qapqara qaralmışdı. Onun dili, ağzı olsaydı, hönkürüb ağlayardı.

Atillanın ordusu Roma qalasının darvazasına çatanda – bu nəhəng imperiya özünü qorumaq imkanlarından məhrum idi, bircə müdafiəçisi qalmışdı.

Yalın ayaqlı bir qoca şəhər qapısından çıxıb Atillanın çadırına doğru gedirdi və titrəyən əllərində çomağını güclə saxlayırdı. Bu, papa I Leon (Lev) idi. Əyninə kəfənəoxşar ağ paltar geymişdi, xaçabənzər taxta qılıncı başının üstündə tutub tüstüyə bürünən möhtəşəm qalanın əzəməti önündə özünü vüqarlı göstərməyə çalışırdı.

Atilla at belindəydi. Mars qılıncını göyə qaldırıb yürüş əmri vermək istəyəndə qocanı gördü. Bircə an lazım idi ki, o, əlini aşağı salsın və tufanyerişli hun döyüşçüləri oda-alova qalanan şəhəri - dünya mədəniyyətinin beşiyini yerlə-yeksan etsinlər. Amma, nədənsə, heç vaxt qərarını dəyişməyən Atilla duruxdu, şahə qalxan atının başını döndərib sakitləşdirdi və qocanın onun çadırına rahat çatmasına şərait yaratdı. Minlərlə igid qəzəbini içinə salıb kirimişcə dayandı. İnsan təlatünü səngidi. Təkcə alovun küləklə oyunundan çıxan uğultu qulaqlara hakim kəsildi…

Atilla qoca papa ilə göy çadıra girdi. Onlar ikilikdə bir neçə saat nə barədəsə danışdılar. İpək parçanın arxasından hər ikisinin silueti lap uzaqdan sezilirdi. Qoca dizi üstə çökmüşdü, gah torpağa sancılıb yellənən qılınca baxır, gah da başını güclə qaldırıb Atillanın sifətinin cizgilərində mərhəmət arayırdı. Hələ ki, nə Mars qılıncında, nə də hun başçısında yumşalmağa doğru meyl vardı. Qoca şirin vədlərini təriflikəlmələrəqatıbyağışkimiyağdırırdı, lakin sülhün açarı tapılmırdı. Söhbətin uzunluğu yürüş əmri gözləyən döyüşçüləri yorsa da, ətrafa hakim kəsilən sakitlik öz hökmranlığını əldən vermək istəmirdi. Elə bil zaman dondurulub, tarixin təkəri iri bir daşa ilişib, dünya hərəkətsizləşmişdi.

Nəhayət, çadırdan birinci qoca çıxdı, gəldiyi kimi də sürünə-sürünə şəhərə doğru getdi. O, qara tüstünün içində gözdən itəndən sonra Atilla göründü və cəld bir hərəkətlə qara atı Villamın (Şimşək) belinə tullandı, orduya geri çəkilmək əmri verdi.

Neçə əsr boyu qanlı müharibələr apararaq Şərqin nəhəng imperiyalarını – İran, Misir və Hindistanı qarət etməklə böyük sərvət toplayan qüdrətli Romanın xəzinələrini Atillanın yığıb aparmasına heç bir maneçilik törədən yox idi… O, həmin anda dünyanın ən şanslı və bəxti gətirən hökmdarı idi, heç kəsə nəsib olmayan böyük qələbənin bir addımlığında dayanmışdı. Bütün tarixi mərhələlərdə (nə bu hadisədən qabaq, nə də sonra) belə uğurla heç bir sərkərdə üz-üzə dayanmamışdı və bir də heç kimin qismətinə belə gün düşməyəcəkdi. Əksər mənbələrdə vəhşilik, zülmkarlıq, cəsarət və qətiyyətlilik rəmzinə ▶





Çoxları Atillanın türklüyünü danaraq özününküləşdirib, epos qəhrəmanı səviyyəsinə qaldırıb və yalnız bir neçə tədqiqatçı çəkinmədən bildirib ki, «Atillanın həyatı lider olmağın əsası və dərsliyidir».



çevrilən Atillanın adına əslində elə bir şücaət yazılacaqdı ki, minilliklər boyu heç kəs üçün ona bərabər ikinci belə məqam yaranmayacaqdı. Əgər yaransaydı, nə Kral Artur, nə Napolyon, nə I Pyotr, nə də Hitler o fürsəti asanlıqla əldən buraxa rdı...

Bəli, Atilla, ulu babalarının dəfələrlə qanını içən, soydaşları hunları adam yerinə qoymayan romalılara «yüngül» qulaqburması verməklə kifayətləndi. Hun döyüşçüləri qadınların tumanının altında gizlənən Pompey, Sezar nəslini layiq olmadıqları boluq-sərvət içərisində buraxıb geri qayıtdılar. Atilla bir jesti ilə türklərin xeyrinə işləyən tarixin təkərini ləngitdi.

...İndi tarixçilər yaman baş sındırırlar: görəsən, I Leon çadırda Atillaya nə dedi? Hansı sözlərlə hun sərkərdəsini asan qələbədən əl çəkməyə vadar etdi? Atillanın bu xeyirxahlığından utanmayan bəzi Qərb tarixçiləri insafsızcasına yazırdılar ki, «Vəhşi, yırtıcı, azğın, amansız hun başçısı xaçın qarşısında diz çökdü». Böyük sərkərdənin ata-baba adətlərindən gələn müdrikliyi və humanizmi xristianlığın xeyirinə yozuldu. Həmin tarixi hadisədə Atillanı qərarından döndərən, ilk növbədə, qüdrətli düşmənin öz məğlubiyyətini acizanə şəkildə boynuna alması idi. Ərənlərimiz sonralar da qılıncın altından keçən rəqiblərini öldürmürdülər. Bir də yeniyetməlik çağlarında romalıların süfrəsindən çörək yemişdi, papa I Leonun maraqlı söhbətlərini dinləmişdi...

Əslində Atillanın Romanı bu şəkildə diz çökdürməsi ilə xristian dünyası bu gün də barışa bilmir. Ondan çox danışsalar da, haqqında kitablar, filmlər, tamaşalar hazırlasalar da, həmişə vəhşiliyini ön planda saxlayırlar. Şərhlərdə deyilir ki, «Hun Atilla – ilk baxışdan bəhs edilməyə, liderlər cərgəsinə çıxarılmağa, dahilər sifətində göstərilməyə layiq olmayan tamam şübhəli subyektdir». Bütün tarix boyu onu mənfur tiran, oliqarxiyaçı, heç bir təbii axına məhəl qoymadan öz ordusunu qəddarcasına gözəlliklərin, dinc lantşaftın məhvinə yönəldən, şəhərləri qarət edən, mədəni Avropa əhalisinə qan udduran köçəri barbar kimi təsvir etmiş, hətta alleqorikləşdirərək şeytan cildinə salmışdılar. Lakin bu qənaətləri irəli sürənlərin özləri də onun liderliyini tam dana, böyüklüyünü, dahiliyini gözdən sala bilməmişlər.

İndi bəziləri onunla təskinlik tapırlar ki, Atillanın xalqı çoxdan yer üzündən silinib, "daha yöndəmsiz köçərilər yovşanlı düzənlərdə vurnuxmurlar". Belə deyildi. Lakin hunların tamam köklərini kəsdiklərini fəxrlə etiraf etməklə onlar öz əcdadlarının sivilizasiyadan uzaqlıqlarını, bütöv bir xalqı son nümayəndəsinədək genosidə uğratmaqla qaniçənliklərini təsdiqləmirlərmi? Onu da vurğulayırlar ki, guya Atillanın həyatında maraqlı bir epizod yoxdur, ondan kimsə, «böyük Rəhbər düzəldə bilməz». Doğrudur, çoxları onun türklüyünü danaraq özününküləşdirib, epos qəhrəmanı səviyyəsinə qaldırıb və yalnız bir neçə tədqiqatçı çəkinmədən bildirib ki, «Atillanın həyatı lider olmağın əsası və dərsliyidir».

Gəlin, tarixin bu tapmacasının cavabını tapmaq üçün baş sındırmayaq. Bir qədər də əvvələ qayıdan, hunları Avropaya və Atillanı Romanın darvazalarına gətirib çıxaran səbəbləri aydınlaşdıraq. Görək, ulu əcdadımız haqlıdır, yoxsa...

Yoxsa elə bir səhvə yol vermişdir ki, ağrısını onun soydaşlarının qanını daşıyan türk xalqları bu gün də çəkirlər...

## ROİL XAN

*"Hər şey sərvətə, var-dövlətə bağlıdır"*

**Hunların dövləti** çiçəklənmə dövrünə qədəm qoyurdu. Torpaqları Aral dənizinin sahillərindən Dnep çayınadək uzanırdı. Lakin əsasən quruculuqla məşğul olan Mançuq dünyadan tez köçdü, taxt-tacı qardaşı Roil ələ keçirdi. O, nəhəng ordu toplayaraq 422-ci ildə Roma imperiyasının ərazilərinə soxuldu, Pannoniyanı (müasir Macarıstanın ərazisi) asanlıqla ələ keçirdi. İmperator onunla danışığa başladı, hunlardan dostluq istədi və çoxlu vədlər verdi.

Roil xan pula, vara həris adam olduğundan yürüşlərdən əl çəkdi, ulu babalarının qəhrəmanlıq ənənələrini yarımçıq qoydu, atasının vəsiyyətini belə qulaqardına vurub rəiyyətini alçaldan yüngül diplomatik əlaqələrdən yapışdı, sərvət toplamaği döyüş şöhrətindən üstün tutdu. O, anlamırdı ki, soydaşlarının hünərləri yerli sakinlərin, xüsusilə varlı təbəqənin yuxusuna haram qatıb. Onun inanmaği gəlmirdi ki, hunlar dünyaya ağalıq etməyə qadirdilər, yaradıcının himayədarlığı ilə yer üzünün bütün sakinlərinə qüdrətli bir xalq olduqlarını anladacaqlar. Roil xan tezliklə hər şeyi nəfsinə qurban verdi və hun döyüşçülərini imperiyanın xidmətində durmağa sövq etdi.

Atilla isə yeniyetməlik çağından müqəddəscəsinə soyunun cahandarlıq əfsanələrinə, əcdadlarının alicənablığına inanırdı. Bilirdi ki, ulu babası Balamir möhkəm və cəsarətli sərkərdə kimi tanınıb, yaşadığı çağlarda adını eşidən avropalılar qorxudan tük salıblar. Babası Ulduz xan və atası Mançuq xan da ən çətin vəziyyətlərdə heç kəsə boyun əyməyiblər. Əcdadları Asiyaya, Afrikaya ağır yürüşlər etsələr də, gecə-gündüz at belində gün keçirsələr də, heç vaxt öz tayfalarının kiminsə ətəyindən yapışmasına, əli qoynunda yad iqtidarların qapısında qulluqda durmasına razılıq verməyiblər. Raul xan isə hunların ən igid gənclərini Roma imperatorunun və əsilzadələrinin xidmətinə göndərdi. Harınlamış senatorlar, konsullar və legion başçıları Şərq ölkələrindən topladıqları sərvəti sağa-sola xərcləyərək kef məclisləri düzəldir, əxlaqsız işlər görür – qara camaatla aralarında keçilməz sədd yaratmaqdan ötrü Roulun yolladığı hun cavanlarını saraylarda nəzarətçi kimi saxlayırdılar.

Soydaşlarının romalılara qulluq etməsi açıqfikirli gənc şahzadənin heysiyyətinə bərk toxundu. O, hətta bir gün xanı açıq-aşkar məzəmmət etdi. Roil xan qardaşı oğlunun tənqidlərindən qəzəbləndi. Onu taxt-tacı üçün təhlükə hesab etdi. Əl-qolunu bağlamaq məqsədilə öz oğlunun əvəzinə Atillanı gi- ▶

Atillanın babası Ulduz xan və atası Mançuq xan da ən çətin vəziyyətlərdə heç kəsə boyun əyməyiblər.





Müstəqil insanları heç yerdə sevmirlər. Asekini də öz ölkəsində gözü götürməyənlər vardı.

rov kimi Roma İmperatorunun sarayına göndərdi.

Bəli, girov həyatınadək Atilla imperiyadaxili intriqalara qarşı çıxıb soydaşlarını bir bayraq altında birləşdirmək barədə düşünürdü. Lakin iş elə gətirdi ki, onu nifrət bəslədiyi qurumun süfrəsindən çörək yeməyə, yeri düşəndə isə onların xidmətində durmağa vadar etdilər. O, Romada öz xarakterini qoruyub saxlamalı, əsəblərini cilovlamalı, üzdə dost kimi görünən düşmənin qızışdırıcı hərəkətlərinə məhəl qoymamalı idi. Və bu hal onu hakimiyyətə doğru daha inamla can atmağa sövq edirdi.

Atilla Roil xanın tapşırığı ilə başına gətirilən bütün məhrumiyyətlərə dözürdü. O, heç kəsə boyun əymirdi, əksinə, hətta bir dəfə söz atıb şərəfinə toxunan romalını başının üstünə qaldırıb biabırçı şəkildə hovuza atır. Bundan sonra düşmən öz evlərində belə ondan çəkinməyə başlayır.

Yad ölkədə yalnız bir yaşıdı ilə dostlaşır. Aseki (Aesius) də xaraktercə əyilməz idi. O, Roma atlısı və Afrika canişininin oğlu idi. Atası german muzdlusu olsa da, Pannoniyada varlı və əsilli romalının qızı ilə evlənmişdi. Asekinin anasının imperator sülaləsi ilə qan qohumluğu vardı. Bu yeniyetmə mahir bir döyüşçünün və roma zadəganlığın övladı sayılırdı. Atasının Qalliyada baş verən üsyanda öz əsgərinin əlləri ilə öldürülməsindən sonra o, imperatorun himayəsinə keçirilmişdi.

Atilla ilə Aseki arasında dostluq telləri bağlanırdı. Onlarınkı tuturdu. Hər ikisi döyüş hazırlığı məsələlərində xüsusi istedada malik idi. Öz aralarında müzakirələr aparanda Şərqin müharibə taktikasının üstünlüyünü anlamışdılar. Aseki Atillaya Roma vuruşunun sirlərini öyrətməklə hunlardan daha cəsarətli və güclü olduqlarını sübut etməyə çalışırdı. Lakin hunların süvari qoşununun atla sürətli hücumu zamanı ox atmaq məharətinə heyran qalmışdı. Bir də sakit və həlim görünən hunların müharibədə gözləri önündə qan töküldükcə qorxu hissini itirib şirə dönmələrinin səbəbini anlamaq istəyirdi. Bəzən döyüş təlimlərində Atillanı hirsləndirir, ondakı dəyişkənliyin, artan gücün, qarşısıalınmaz emosiyaların mənbəyini tapmağa çalışırdı.

Müstəqil insanları heç yerdə sevmirlər. Asekini də öz ölkəsində gözü götürməyənlər vardı.

Romanın daxilində orduda iki sərkərdə arasında kəskin münaqişə yaranmışdı. Bonifasi Asekinin hunların döyüş taktikasını roma legionlarına tətbiqini özlərinə təhqir sayırdı. Onlar hələ yeniyetməlik çağlarından bir-biri ilə yola getmirdilər. Bunu bütün Roma bilirdi. Döyüşlərin birində Bonifasi müəmmalı şəkildə öldürüldü. Aseki qorxuya düşdü ki, senat bu məsələdə onu günahlandıracaq. Ona görə də Atillaya yardım etdi ki, ona qoşulub girovluqdan qaçsın və hər ikisi birlikdə təhlükədən uzaqlaşsın.

Aseki şahzadə ilə hunların yanına gəldi. Girov həyatından xilas olmasında Asekinin köməkliyini Atilla heç vaxt yaddan çıxarmadı. Onu Roili xandan himayəsi altında bir neçə il romalıların təqiblərindən qorudu. Aseki qısa zamanda hunların döyüş taktikasını, sursat və silahlardan istifadə üsullarını yaxşı-yaxşı öyrəndi.

Bir gün imperator hun xanının yanına elçilər göndərdi. Onlar çoxlu hədiyyələr gətirdilər. Roildən xahiş etdilər ki, xayin Asekinin qollarını bağlayıb geri göndərsin.

Atillanın işə qarışıb romalı dostunu bir həmlə ilə xilas edəcəyini düşünən Roil xan hiylə işlətdi. Qardaşı oğlunun qılıncını qınından çıxardıb Asekiyə verdi. Sonra imperatorun legionerlərinə dedi:

-Hun çörək kəsdiyi qonağının qollarını bağlamaz. Aseki sizin sərəncamınızdadır. O təkdir, siz isə on beş döyüşçüsünüz. Bacarırsınız, özünüz onun qollarını bağlayıb aparın. Hunlardan kimsə romalıya yardım eləmək istəsə, ancaq silahsız, yalın əllə qabağınıza çıxacaq.

Təkcə Atilla silahsız Asekinin yanında qaldı. Meydan sıxılıb ortanı boşaltdı. Romalılar çaşıb qaldılar. Əlbəttə, Roil xanın ürəyindən keçirdi ki, orada iki dəliqanlı ilə təpədən dırnağa silahlı romalılar arasında döyüş başlasın. Əmin idi ki, Atilla silahsız onların əlindən sağ çıxmayacaq. Amma uzun nizəli döyüşçünün hücumu vəziyyəti tamam dəyişdi. Atilla çevik bir tullanışla onu atdan saldı, nizəsini əlindən alıb düşmənə deyil, hunların bayraqları sancılan dirəyə doğru atdı. Nizə Roil xanın başının üstündən keçib taxta lövhəyə sancıldı. Bundan sonra romalılar yerə sərilən döyüşçünü özləri ilə götürüb suları süzülə-süzülə geri qayıtdılar. Bu, Atillanın Roil xana son xəbərdarlığı idi.

Atilla vətənə dönəndən sonra da açıq-aşkar taxt-taca can atmırdı. Hər addımını düşünüb-daşınırdı. O, anlayırdı ki, ilk öncə idarəçilik bacarığına yiyələnməli, soydaşlarının qəlbinə yol tapmalıdır. Boş vaxtlarında meşənin dərinliklərinə çəkilib gələcək işlərini planlaşdırdı.

Avropa tarixçilərinin qənaətlərinə görə, ayrı-ayrı tayfalar şəklində götürəndə hunlar işlək, daim hərəkətli və tez-tez inamlarını dəyişən idilər. Hələ torpağa bağlanmamışdılar. Həmişə səfərlərə hazırlaşır və növbəti dayanacaqlarının uzun sürməməsi barədə düşünürdülər. Atlı tayfa sayılırdılar. Əyləncələri də, sevgiləri də at belində keçirdi. Bir-biriləri arasında mal dövriyyəsinə çıxarmağa əmlakları hələ yox idi. Bu səbəbdən də qarşılarına çıxan yad kəndləri boşaldır, əllərinə nə keçirirdilərsə, hamısını öz malları kimi götürüb xurcunlarına doldururdular. Yer üzündə canlı-cansız nə vardı, hamısını öz ovları kimi qəbul edirdilər. Topladıqlarını bazara aparıb yaşamaq üçün lazım olan müxtəlif ərzaqlara dəyişirdilər.

Başçı kimi gənc Atillanın qarşısında çətin bir vəzifə dururdu. O, bir çox vəhşi adətləri həyatın prinsipinə çevirən, başqasına tabeçiliyi özünə ar bilən, azad gəzib-dolaşan, sərbəst düşüncəli və anarxiyaçı təbiətə malik hunları monolit xalq olaraq birləşdirməli idi. Ona maneçilik törədənlər təkcə ailə və tayfadan kənarda olanlar deyildilər, doğma əmisi də belələrinin arasında idi. O yaxşı anlayırdı ki, gələcək döyüşlərdə hun ordusu daha intizamlı, təpədən dırnağa silahlanmış, yüksək təlim almış döyüşçülərlə üz-üzə duracaq. Atillanın dünyanı öz əsarəti altına almaq, bununla hunlar ölkəsini hər yerdə tanıtmaq arzusunu əvvəllər ən yaxın silahdaşları da dəstəkləmirdi. O, bütün başçıları səbirlə dinləyib etirazlarının əsassızlığını inamla anlatmalıydı. Atilla yaxşı anlayırdı ki, hun öz başçısından o halda çəkinəcək ki, onun gücü, ağlı və fərasəti qarşısında acizliyini duyacaq. Atilla bir də səxavəti ilə onları ələ ala bilərdi. Döyüşlərdə toplanan sərvəti igidlik göstərənlər arasında hünərinə görə paylaşdıracağına hamını inandırmalıydı.

Məqam çatan kimi – Atilla fürsəti əldən buraxmadı. Roil xanın xəsisliyi və pula hərisliyi o həddə çatmışdı ki, az qalardı hunları romalıların quluna çevirsin. Kimə dərs vermək lazım gəlirdi, imperator ona sifariş verirdi, qotları, yerli üsyankar sənətkarları cəzalandırmaq üçün hunlar işə qarışırdı. Bu hal elə həddə çatdı ki, Atilla qəzəbini boğa bilməyib elin yığıncağında at belində hökmdarın iqamətgahına doğru çaptdı. Onun qarşısını almağa cəhd edənlər yəhərdən aşırıldılar. O, əvvəl kamanının yayını işə saldı, uzaqdan sərrast atdığı ox Roil xanın sinəsinə sancıldı. Sonra qılıncını havaya qaldırıb beli bükülü xanın boynuna endirdi. Bu, qədim ritualı xatırladan hərəkət bir neçə saniyənin içində hamının gözü önündə baş verdi. Atilla bir neçə kəlməni elə bağırdı ki, elə bildilər göydə ildırım çaxdı:

-Babalarımızın hökmünü yerinə yetirdim. Özünü düşmən qarşısında nökər sayanların, hunu qula çevirmək istəyənlərin aqibəti belə olacaq.

Qardaşı sinəsini qabağa verib onu qorumağa çalışdı. Lakin ani sükutdan sonra birdən-birə hər şey dəyişdi. Bütün hun əhli qılıncını göyə qaldırıb qışqırdı:

-Atilla!.. Atilla!..

Atilla hakimiyyəti ələ aldı. O, özündə elə bir güc hiss etdi ki, artıq ən çətin problemə hazır idi.

**Dünyanın yeni qüdrətli sərkərdəsi belə doğuldu. Özünün və xalqının həyatını risk altında qoymaqla sonsuz qələbələrə yol açaraq bu şəxs məhrumiyyətin, təhqirin, xəyanətin, insanlığın, qəddarlığının içindən keçib taxt-taca yiyələndi. Bu hadisə 434-cü ildə baş verdi. Roilin ölümündən sonra Aseki Romaya qayıtdı və ikinci dəfə konsul seçildi.**

**Atilla qırx yaşında taxtda əyləşdi. 11 il ərzində qardaşı Budadan yardım gördü…** ■

*(Ardı gələn sayımızda)*

Hun çörək kəsdiyi qonağının qollarını bağlamaz.

